Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Parisdə ilk diplomatik təhsil alan azərbaycanlı

## Əli Yusif Azərbaycan tarixinin təkrarsız və parlaq şəxsiyyətlərindəndir

**Əli Yusif (Ağaəli Cəlal oğlu Yusifzadə) - Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tanınmış şairi, publisisti. Bu adı ilk dəfə 1990-cı illərin əvvəllərində tədqiqatçı alim Qulam Məmmədlidən eşitdim. Onunla həmişəki kimi yenə də M.F.Axundov adına kitabxanada görüşdük.**

Qulam müəllim yaşlı bir kişi ilə xeyli söhbət etdikdən sonra sağollaşdı. Üzünü mənə tutaraq dedi: "Qızım, bu, Alim Yusifzadədir. Qardaşı Əli Yusif Cümhuriyyət dövründə Parisdə ilk siyasi təhsil alan azərbaycanlı olub. Böyük nəsil idilər". (Novbəti saylarımızdan birində Əli Yusifin qardaşı, 2001-ci ilə kimi ömür sürən, uzun illər Xarici Dillər İnstitutunda çalışan Alim Yusifzadə haqqında söhbət açacağıq – müəl.).

İkinci dəfə Əli Yusif adı ilə on beş il bundan əvvəl, namizədlik dissertasiyası mövzumla ("Azərbaycan Xalq Cümhuriyyəti dövründə jurnalistika (1918-1920-ci illər") bağlı arxivlərdə, kitabxanalarda məlumat toplarkən rastlaşdım. Onu dövrünün bir istiqlalçı yazarı, "Yaşıl qələm" cəmiyyətinin ən fəal üzvü kimi tanıdım. Amma acınacaqlı taleyi ilə cümhuriyyət tələbələri haqqında "Kaspi" qəzetinə məqalə hazırlayarkən tanış oldum.

### LAYİQLİ ÖVLAD

1900-cü ilin 1 yanvarında Mirzə Cəlal Yusifzadənin ailəsində bir oğlan uşağı dünyaya gəlir. Adını Ağaəli qoysalar da, sonralar o, Əli kimi çağrılır və tanınır. Anası Leyla Əlinin qayğısına cəmi beş il qala bilir. Anasının qəfil vəfat etməsi Əliyə həyatda vurulan ilk zərbə olur. Əlinin atası Mirzə Cəlal təhsilli bir insan idi. 40 il müəllimlik edən Mirzə Cəlal o zaman əsasən Tiflisdə nəşr olunan rusdilli mətbuatla əməkdaşlıq etmiş, şeirlər, pyeslər yazmış, bir neçə əcnəbi dili mükəmməl öyrənmiş, tərcümələr etmişdi. Odur ki, övladlarını da çox erkən elmə, maarifə yönəltmişdi. Dövrünün əksər uşaqları kimi Əli də ilk olaraq dini təhsilə yiyələnir və sonra Şuşa realnı məktəbinə gedir.

### 11 YAŞLI ƏLİNİN MƏTBUATA GƏLİŞİ

Əksər tədqiqat əsərləri və məqalələrdə qeyd edilir ki, Əli Yusif mətbuatda ilk dəfə 1915-ci ildə "Qurtuluş" jurnalında çap edilib və yaradıcılığa şeirlə gəlib. Əslində isə Əli Yusif ilk dəfə 1911-ci ildə "İşıq" jurnalında çap edilib və yaradıcılığa tərcümə ilə gəlib. Bu, "İşıq" jurnalının 3-cü sayında çap olunan, Krılovdan tərcümə etdiyi "İki kotan" şeiridir. İlk çıxışı uğurlu olan balaca Əli sonra öz şeirlərini jurnala göndərir. Bu zaman Əli Şuşa realnı məktəbinin ikinci sinfində oxuyurdu və cəmi 11 yaşı var idi.

1913-cü ildə Əli "Məktəb" jurnalına şeir və hekayələrini, tərcümələrini göndərir. 1915-ci ildə isə o, "Qüruba qarşı bir yetimin lisanından" adlı şeirinə görə "Qurtuluş" jurnalının mükafatına layiq görülür. (Tədqiqatçıların yazdığına görə, bu mükafat Əlinin yaradıcılığında birinci və sonuncu mükafatı olur – müəl.).

Beləliklə, Azərbaycan mətbuatında əsasən Əli Yusif Rai imzası ilə tanınan şair, publisist, tərcüməçi Əli Yusif Yusifzadə dövrünün istedadlı bir qələm adamı olub. Əli Yusif əsasən Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazıb-yaratmaqla yanaşı, həmin illərdə ölkəmizdə ədəbi mühitin inkişafına da dəstək olub. O, 1919-cu ildə "Yaşıl qələm" ədəbi birliyinin yaranmasında yaxından iştirak edib və onun ən fəal üzvlərindən biri olub. Onun "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Qurtuluş yolu" qəzet və jurnallarında istiqlalı tərənnüm edən şeirləri, publisistik məqalələri saysız-hesabsızdır.

Lakin mən bu məqaləmdə Əli Yusifin bədii yaradıcılığından söz açmaq fikrində deyiləm. Çünki bu haqda tədqiqatçı alimlərdən A.Çingiz, İ.Ağayev, A.Əliyeva, Ş.Vəliyev, A.Bayramoğlu, Ə.Saraclı və başqaları geniş məlumat veriblər. Əli Yusif Azərbaycan tarixinin kifayət qədər təkrarsız, unikal, orjinal, parlaq şəxsiyyətlərindəndir və XX əsrin ilk ali diplomatik təhsil almış bir siyasi adamıdır.



Группа азербайджанских студентов по приезде в Париж. Начало 1920 г.

### ƏNVƏR PAŞANI HEYRAN EDƏN GƏNC

Əli Yusif 18 yaşında Bakıda Ənvər Paşa ilə görüşür və onu Şuşaya dəvət edir. Yüksək istedada, bacarığa, səlis nitqə, aydın təfəkkürə, ədəb-ərkana malik olan bu gənc ilk görüşdən Ənvər Paşanın diqqətini cəlb edir. Ənvər Paşa ona daha yüksək təhsilə yiyələnməsini tövsiyə edir.

### CÜMHURİYYƏTÇİ TƏLƏBƏ, YOXSA "XALQ DÜŞMƏNİ"?

Əksər tədqiqat əsərlərində, hətta Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının I və II cildlərində Əli Yusif (Yüsifzadə) haqqında iki müxtəlif məlumat verilib. Məsələn, ensiklopediyanın I cildində Əli Yusifin ölüm tarixi səhv olaraq 1926-cı il göstərildiyi halda (Bax.I cild. 2004.s.338), II cilddə ölüm tarixi qeyd edilməyib. (Bax: II cild. 2005.s.443). Ensiklopediyanın elə bu cildində yenə bir yanlışlığa yol verilib. Əli Yusifin təhsilini Fransada "texnika sahəsində davam etdirmək üçün Mülxuz politexnik məktəbinə" (s.443) göndərildiyi bildirilib. I cilddə Əli Yusif haqqında "proletar dövlətinə qarşı yönəldilmiş digər cinayətlərdə" təqsirləndirilərək Sibirə sürgün edilmiş, orada qətlə yetirilmişdi" (s.339) yazıldığı halda, II cilddə "sonrakı taleyi haqqında heç bir məlumat yoxdur" (s.443) yazılır. Yeri gəlmişkən, bir faktı da qeyd etmək istərdim ki, ensiklopediyanın hər iki cildində bir- birini təkzib edən, bir-birinə zidd olan belə səhv informasiyalar yalnız Əli Yusif haqqında deyil, digərləri haqqında da yetərincədir.

Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan sənədlərdən də bəlli olur ki, Əli Yusif (Yusifzadə) Azərbaycan parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarına müvafiq olaraq Fransaya ali təhsil almağa göndərilir və Paris Siyasi Elmlər Məktəbinin Diplomatiya fakültəsinə daxil olur.

**1927-ci ildə güllələnməsinə əmr verilmiş 14 nəfərin adları arasında Əli Yusifin də adı olub. Amma nədənsə o güllələnməyib, az sonra Solovkiyə sürgün edilib. Sürgün vaxtının qutarmasına az qalmış Əli Yusif yenidən Daşkəndə sürgün edilir. Burada Özbəkistan SSR xalq daxili işlər komissarı Apresyan Derenik Zaxaroviçin birbaşa səyi ilə 1937-ci ilin 18 avqustunda 37 yaşında Əli Yusif ən ağır cəzaya, güllələnməyə məhkum edilir və elə həmin gün gecə saat 3-də əmr yerinə yetirilir.**

Bəs sonra? Sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti XI ordu tərəfindən silah gücünə süqut edir və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Avropa ölkələrində təhsil almış tələbələrə daşnakların, rus şovinistlərinin, bir sözlə, düşmənlərimizin gözü ilə baxdığı üçün onların sonrakı taleyi daha dəhşətli faciələrlə nəticələnir. Ya qürbət ölkədə aclıqdan intihar etməklə, ya da vətənə dönüb həbslərin, sürgünlərin, güllələnmənin qurbanı olmaqla.

Nə qədər axtarsam da, Əli Yusifin neçənci ildə vətənə dönməyi haqqında sənədlə rastlaşa bilmədim. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının yazdığına görə, "1922-ci ildə o, Parisdə Siyasi Elmlər İnstitutunu əla qiymətlərlə bitirib Bakıya qayıtmışdı" (Bax: AXCE. İki cilddə. I cild. 2004. s.339). Təbii ki, şura hökuməti istiqlal şairini, cümhuriyyət tələbəsini "qara siyahı"ya salmalı idi və saldı da. Ölkədə yüksək Avropa təhsili görmüş kadrlara "iş tapılmadığı" bir zamanda Əli Yusifin də qara günləri başlayır.

1927-ci ildə güllələnməsinə əmr verilmiş 14 nəfərin adları arasında Əli Yusifin də adı olub. Amma nədənsə o güllələnməyib, az sonra Solovkiyə sürgün edilib. Sürgün vaxtının qutarmasına az qalmış Əli Yusif yenidən Daşkəndə sürgün edilir. Burada Özbəkistan SSR xalq daxili işlər komissarı Apresyan Derenik Zaxaroviçin birbaşa səyi ilə 1937-ci ilin 18 avqustunda 37 yaşında Əli Yusif ən ağır cəzaya, güllələnməyə məhkum edilir və elə həmin gün gecə saat 3-də əmr yerinə yetirilir.

Bütün ömrünü Azərbaycanın istiqlalı uğrunda mübarizəyə həsr edən Əli Yusif o qədər sürgün və həbslərdə olub ki, ailə qurmağa da macal tapmayıb. Xaricdə təhsil alarkən də evlənməyib. Heç bir yadigarı qalmayan Əli Yusifin şeirləri, amalları, arzuları bu gün Azərbaycan gəncinə ən qiymətli bir örnəkdir.

### KÖHNƏ DÜŞMƏNÇİLİYİN YENİ ÜSULLARI

Məqaləmi bitirərkən Nazif Qəhrəmanlının "Vətən və istiqlal aşiqi Əli Yusif" adlı kitabını xatırladım. Kitabdan bir neçə cümləni olduğu kimi diqqətinizə çatdırıram: "Siyasi repressiyaları bizdə bir qayda olaraq Stalinin adı ilə bağlayırlar, əslində bu cəza tədbirləri V.İ.Lenin dövründə başlamışdır. Repressiyalar kommunist rejiminin təcavüzkar təbiətinə xasdır. Stalindən sonra da onun varisləri bu işi davam etdirmişlər. Hakimiyyətə qeyri-qanuni yolla gələnlər hüquq və azadlıqla bir araya sığmayan rejim qurmuşlar. Bu rejim öləndə isə faşizm üzə çıxır. 20 yanvar 1990-cı il hadisələri belə bir faşizmin təzahürü idi".

Məncə, heç bir şərhə ehtiyac yoxdur.



Qərənfil Dünyamin qızı
Filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar jurnalist

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*